# SÖZÜN GÜCÜNƏ İNAMLA

## *Əli Rza Xələflinin «Salatın Əhmədli düşüncə axarında» kitabına rəy-düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Bəri başdan onu qeyd edim ki, müasir ədəbi mühitimizdə Salatın Əhmədlinin yaradıcılığı kifayət qədər diqqəti cəlb edir. O, məhsuldar müəllif kimi dilçilik sahəsinə aid elmi məqalələri, ədəbi-publisistik yazıları, hekayələri, povestləri, romanları ilə oxucularla özü arasında çoxdan sarsılmaz körpü yaradıb. Etiraf etmək lazımdır ki, zəhmətdən qorxmayan, Tanrının bəxş elədiyi istedadı zəğmətlə birləşdirən müəlliflərin haqqı birinci n.vbədə oxucu rəğbətini qazanmaqdır. Real həyatımızla bağlı maraqlı hekayələrin, povestlərin və romanların müəllif kimi də Salatın Əhmədlinin əsərləri ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilir.

Akademik İsa Həbibbəyli, akademik Nizami Cəfərov, professor Rüstəm Kamal, professor Mahmud Allahmanlı, professor Gülxani Pənah və şair-publisist, ədəbiyyatşünaslığımız və ümumiyyətlə ədəbi tənqidimiz sahəsində qələmi uğurla işlədən Əli Rza Xələflinin yazılarında Salatın Əhmədlinin yaradıcılığı müxtəlif tərəflərdən təhlilə cəlb edilir, yüksək ədəbi zövq aşılayan bədii lövhələri haqqında dəyərli fikirlər söylənilir. Mən Salatın Əhmədlinin həm özünün yaradıcılığını və həm də onun yaradıcılığını incələyən bir çox müəlliflərin kitablarını məmnuniyyətlə çap etmişəm. Bu da mənə imkan verirb ki, fəal ədəbi müəllif kimi onun yaradıcılıq aləminə yaxından bələd olum.

Professor M.Allahmanlının «Dilə sevgi, yurda sevgi» kitabını nəşr edəndə mən bu cəfakeş sənətkarımızın dilimiz və mənəvi varlığımızla bağlı necə narahatlıq keçirdiyini, qayğılandığını müşahidə etmişəm. Belə qənaətə gəlmişəm ki, nə qədər doğma dilə sevgisi olan müəlliflər qələm işlədir - demək dilimizin, mənəvi dəyərlərimizin əsasları heç bir yad qüvvələrin təsiri ilə sarsıla bilməyəcək. Eləcə də ədəbiyyatşünaslıq elmimizin digər görkəmli nümayəndələrinin də Salatın Əhmədli yaradıcılığı ilə bağlı yazdıqları göstərir ki, o, nəinki ciddi-mənəvi problemləri daim diqqətdə saxlayır, həm də bu problemləri müzakirə obyektinə çevirə bilir. Təkcə elə Ə.R.Xələflinin «Dilimiz - varlığımız» kitabı təsdiq edir ki, Salatın Əhmədli dilimizin keşiyində dayanmağın məsuliyyətini yaxşı bilir və ədəbi mənəvi mühitimizə də bu məsuliyyəti aşılamaq üçün sonsuz səy göstərməkdən yorulmur.

Ə.Xələflinin «Dilimiz - varlığımız» kitabı Salatın Əhmədlinin mühüm tədqiqat sahəsinin elmi araşdırmasına həsr olunub. Salatın Əhmədli «Heydər Əliyevin dil siyasəti» elmi monoqrafiyası ilə Ulu Öndərin doğma dilə münasibətini ilk dəfə elmi dövrüyyəyə gətirənlərdən biri olduğunu sübut etdi. Bütün bunları ona görə xatırlayıram ki, Salatın Əhmədli yaradıcılığı artıq çoxdan elmi tədqiqatın obyektinə çevrilib.

«Kredo» qəzetinin cəfakeş baş redaktoru və həm də müəlliflərindən biri kimi Ə.R.Xələflinin Salatın Əhmədli yaradıcılığına həsr olunmuş yeni kitabının da yazılmasını və nəşrini təbii qəbul etməliyik.

Ə.R.Xələflinin ədəbi-tənqidi publisistika janrında yazdığı məqalələrin toplusu kimi ərsəyə gətirilən «Düşüncə axarında» adlı kitabına müxtəlif illərdə yaxdığı məqalələr toplanır. Əslində, bu, çox dəyərli bir təcrübədir. Ayrı-ayrı qəzet səhifələrinə səpələnmiş yazıları bir araya gətirmək və ədəbi-elmi xəzinəmizə daxil elmək sözün həqiqi mənasında ziyalılıq missiyasıdır. Missiya demişkən, elə kitabın ilk yazılarından biri kimi məni cəlb edən mövzunu diqqətə çardırmaq istərdim: «Vətəndaşlıq missiyasının tələbi, yaxud dilimiz və zövqümüz niyə korlanır sualını hər kəs özünə verməlidir» yazısı kitabın ilk səhifələrinə yer alıb.

Ə.R.Xələfli qeydlərinin əvvəlindəcə kütləvi informasiya vasitələrində, xüsusilə televiziya və radio verilişlərində dilə münasibətlə bağlı yaşanan problemləri göstərməyə çalışır: «Bizim yaşadığımız və ilkin tərbiyə olunduğumuz dövr üçün xarakterik olan bir tezis var idi: «Müsbət inkişaf fazasında azadlıq». Təbiidir ki, söhbət sovet dövründən gedir. Hər hansı bir ictimai quruluş, siyasi sistem, hakimiyyətin hər hansı bir forması olur-olsun, dəxli yoxdur, müsbət, əcmiyyətin mənəvi cəhətdən sağlam «hərəkətinə» rəvac verən ideya bütün zamanlarda ölməzdir. Bu mənada, keçmişi idealizədən kənar olaraq qeyd etməliyik ki, istər mətbuatda, istərsə də televiziya və radioda dilin təmizliyinə, cəmiyyətin mənəviyyatının ahəndar inkişafına uyğun olaraq bütün televiziya və radio verilişlərinə, o cümlədən, mətbuatın dilinə xüsusi nəzarət olunurdu. Söhbət siyasi senzuradan getmir, biz siyasi senzuranın qaytarılmasının tərəfdarı ola bilmərik. Onsuz da siyasi senzura təkbəşər ideyaların hakimiyyəti, kommunist ideologiyasının siyasi-mənəvi mühiti ilə bağlı idi». Göründüyü kimi, dilə məsuliyyətsiz yanaşmanın nəticəsi olaraq biz də şahidik ki, savadsız, şit, bayağı yanaşma tərzi ilə dilimiz hər gün aparıcılardan yeni-yeni zərbələr alır. Axı kimsə bu aparıcıların itirilmiş məsuliyyət hisslərini özlərinə qaytarmağa borcludur. Təəssüf ki, çoxlarımız buna biganə yanaşırıq. Hətta bir çox hallarda təəssüflə başımızı yırğalayır, eybəcər dil nümayişinə əlavə münasibət bildirməyə lüzum görmürük. Amma Salatın Əhmədli maraqlı qeydləri ilə bu məsələni müzakirəyə çıxara bilmişdir.

Müəllif Salatın Əhmədlinin düşüncələrinə əsaslanaraq mövcud tənrqidəlayiq vəziyyəti təqdir edir. Bunu hansı yollasa aradan qaldırmağın vacibliyini göstərməyə çalışır. Sözün həqiqi mənasında müəllifin xüsusi yanğı ilə yazdıqlarını bir daha diqqətə çatdırmaq üçün mən müvafiq parçanı oxucularımızın nəzərinə bir daha yetirmək istərdim: «Siyasi senzuradan imtina elədik. Azad cəmiyyətdə, demokratik əsaslarla qurulan cəmiyyətdə siyasi senzuraya yol ola bilməz. Bəs hər bir müəllifin, qələm adamının radioda və televiziyada çıxış edəyən, aparıcılıq hüququnda olan şəxsin özünün mənəvi dəyərlərlə bağlı olan, bu dəyərlərə cavab verməyən, tabe olmaq məsuliyyətini araya çəkən, «senzuraya» nə söz? Belə çıxır ki, siyasi senzuradan imtina eləmişik. Yəni mənəvi senzuradan da imtina eləmişikmi?

Və bu kriteriyadan, bu ölçüdən özünün mənafeyi naminə istifadə edən adamlar tapılır. Onlar nəzarətsizlikdən istifadə edərək həm qəzet səhifələrində, həm televiziya və radio verilişlərində, hətta canlı yayımlarda ən betəri isə teatr tamaşalarında heç bir mənəviyyata sığmayan, heç bir ölçüyə uyğun gəlməyən «dil qüsurlarından» istifadə ilə söyüşləri, mənəvi eybəcərliklərin təzahürü olan hərəkətləri cəmiyyətə nümayiş etdirməkdən çəkinmirlər.

Ayrı-ayrılıqda, ziyalılarla söhbətlərdə, ayrı-ayrı söz-sənət sahiblərinin, qələm adamlarının mənəvi narahatlıqlarını hiss eləyirdim. Adamlar həqiqətən bu cür mənəvi başıpozuqluqla barışmır. «Dillə oynayan» adamların cəzasını verə biləcək «güclü əl», yaxud bir qurum axtarırlar. ...Nə belə bir güc var, nə də belə bir qurum var». Zənnimcə, cəmiyyətin ən müxtəlif təbəqələrinə həqiqəti çatdırmaq üçün müəllif kifayət qədər açıq danışır. Bundan sonra müəllif Salatın Əhmədlinin «Azərbaycan» qəzetində dərc olunmuş yazısını vaxtında deyilmiş sözün dəyərli nümunəsi kimi yada salır.

Nə demək olar, təkcə problemi göstərməklə iş bitmir. Elə buna görə də müəllif öz yazısında Salatın Əhmədlinin qaldırdığı problemi müzakirəyə çıxarır. Klassiklər deyirdilər ki, həqiqətlər mübahisələrdə, müzakirələrdə üzə çıxır. Çox güman ki, müxtəlif tərəfləri, zümrələri əhatə edən rəylərin yazılması elə Salatın Əhmədlinin qeydləri ilə ictimailəşdi. Salatın Əhmədlinin məsələ ilə bağlı qeydlərində Ə.R.Xələfli yazır: «Salatın Əhmədli, görünür, cəmiyyətin biganə münasibətini mənəvi münasibətinə sığışdıra bilmədiyi üçün həmin mövzunu bir qədər də dərinləşdirib, əhatəli işləyib, özünün müşahidələrini də əlavə edərək «Dilimiz və zövqümüz niyə korlanır?» adı ilə bir dilçinin təəssüratı və yaxud publisistik qeydlər kimi «Kredo» qəzetinə təqdim eləmişdi. Yazı qəzetdə dərc olundu. Redaksiyaya, şəxsən mənim ünvanıma (yəqin ki, qəzetin baş redaktru olduğuma görə) zənglər edərək müəllifə bu mənəvi məsuliyyətin ağırlığına, altına çiyin verərək vətəndaşlıq missiyasını ləyaqətlə yerinə yetirdiyi üçün təşəkkürlərini bildirmək istədilər». Ümumiyyətlə hər hansı bir həqiqəti araya gətirməyin özü o qədər də asan deyil. Amma həqiqət araya gətirilirsə, onda istər-istəməz problemin özü də daha aydın görünür. Hər kəs istəyir ki, məsələnin nə dərəcədə kəskin olduğuna münasibət bildirsin.

Açığı, burada bir çox özəl televiziyalarda şou xarakterli verilişlərin biabırçı adlarını da diqqətə çəkməklə dilimizə münasibətin nə dərəcədə yarıtmaz olduğunu göstərmək elə də çətin deyil.

Zənnimcə, Ə.R.Xələfli Salatın Əhmədlinin müzakirələrə səbəb olan məqaləsinə münasibət bildirən ayrı-ayrı müəllifləri də yada salmaqda səhv etmir. Bununla ümumiyyətlə, ziyalılara çatdırmaq istəyir ki, hər kəs gərək ən üstün mənəvi dəyərimiz olan dilə münasibətini bildirməkdən çəkinməsin. Bundan sonra müəllif Salatın Əhmədlinin öz qeydlərinə də diqqəti yönəldir. Ümumiyyətlə, yazıda hər hansı bir müəllif haqqında danışarkən onun özünün də düşüncələrinə yer vermək çox vacibdir. Ümumiyyətlə, hər hansı bir müəllifin qəti və aydın mövqeyi məhz öz sözü ilə oxucuya daha tez çatır.

Açığı, burada bir çox özəl televiziyalarda şou xarakterli verilişlərin biabırçı adlarını da diqqətə çəkməklə dilimizə münasibətin nə dərəcədə yarıtmaz olduğunu göstərmək elə də çətin deyil.

Zənnimcə, Ə.R.Xələfli Salatın Əhmədlinin müzakirələrə səbəb olan məqaləsinə münasibət bildirən ayrı-ayrı müəllifləri də yada salmaqda səhv etmir. Bununla ümumiyyətlə, ziyalılara çatdırmaq istəyir ki, hər kəs gərək ən üstün mənəvi dəyərimiz olan dilə münasibətini bildirməkdən çəkinməsin. Bundan sonra müəllif Salatın Əhmədlinin öz qeydlərinə də diqqəti yönəldir. Ümumiyyətlə, yazıda hər hansı bir müəllif haqqında danışarkən onun özünün də düşüncələrinə yer vermək çox vacibdir. Ümumiyyətlə, hər hansı bir müəllifin qəti və aydın mövqeyi məhz öz sözü ilə oxucuya daha tez çatır. Mən də burada Salatın Əhmədlinin öz düşüncələrini oxucu diqqətinə çatdırıram. Nə qədər əsaslı, nə qədər dəqiq yanaşmadır. Onu da deyim ki, Salatın Əhmədli diqqə bağlı qeydlərində tənqidlərini də kifayət qədər cəsarətlə çatdırır: "Gülüş yaratmaq istəyən yox, doğrudan da mənasız gülüş yaradan qəhrəmanlar dəstəsi yaranıb. Gənclərimizin böyük əksəriyyəti Afaq xanım demişkən onların çıxardığı şəbehlərə doğrudan da ürəkdən "hırıldaşırlar". Səhnədə göstərilən "səhnəciklər" o qədər iyrəncdir ki, "hırıltı" da iyrənc səslənir. Televiziya ekranlarından güclü reklamları verilən bir dəstə gənc, "istedadlı" aktyorların hazırladığı "Zarafatsız: Hələm-qələm" tamaşasına getdim. Maraq üçün, görüm bu gənclər nə demək istəyirlər? Nəvələrimi də aparmaq istədim, onlar məndən usta tərpəndi: "Nənə, mənasız şeydir, biz getmirik. Biz özümüzə söz vermişik ki, ancaq, Gənc Tamaşaçılar Teatrına, bir də Dram teatrına gedəcəyik". Mən getdim. "Tamaşa"nın axırına çox az adam qalmışdı. Axıracan oturdum. Üç saatlıq tamaşada (hələ gecikməklə) üç "səhnəcik" (əttökən) göstərildi.

Əgər səhnəciklər bir saat getdisə, onun sponsorlarının reklamı iki saat çəkdi. Biz bilmədik ora sponsorların reklamını eşitməyə getmişdik, yoxsa tamaşaya baxmağa? Aparıcı-müğənni Ayaz da iki dəqiqədən bir tamaşaçıdan "çəpik çalmağı" tələb edirdi. Nəyə və niyə əl çalmalı idik? Nə isə... "Tamaşa" başladı. Gözümüz alışmağa başladığı personajlar - arvad qiyafəsində bir "hind qızı" (oğlanı) əlində səhəng (?), oğlanın əlində gitara səhnəyə qədəm qoydular. Baxışdılar, bir-birinə vuruldular və sonra başladılar oxuyub-oynamağa. Rəqs edib, oxuyub qurtardıqdan sonra "qız" tələsdiyini deyib, getmək istəyir. Oğlan soruşur: hara? Qız nə cavab versə yaxşıdır? - Bilirsən, atam tualetdə idi, məni su dalınca göndərib. İndi tualetdə oturub məni gözləyir. Heç bu apardığım su da onun yuyunmağına çatmır (harasını?) - bunu deyib səhəngi götürür". Bu parçanı ona görə mən də diqqətə çəkdim ki, oxucular üçün Salatın Əhmədlinin yanaşması ilə bağlı fikir aydınlığı olsun. Ə.R.Xələfli Salatın Əhmədlinin «Dilimiz və zövqümüz niyə korlanır?» adlı məşhur məqaləsi haqqında bəhs etdiyi yazısını belə bitirir: «S.Əhmədlinin dilimiz və zövqümüz niyə korlanır?» məqaləsi vətəndaşlıq missiyasının tələbi ilə yazılıb. Bu qeydlər bir ziyanı narahatlığının nəticəsidir.

*(Davamı 11-ci səhifədə)*

# SÖZÜN GÜCÜNƏ İNAMLA

*(Əvvəli 10-cu səhifədə)*

Zənnimcə, ziyalının səyi ilə müşayiət olunan səsini qulaq ardına vurmaq olmaz. Əks təqdirdə bu, cəmiyyətin gələcəyinə biganəlik demək olardı». Bircə onu əlavə edirəm ki, Salatın Əhmədli «Dilimiz və zövqümüz niyə korlanır?» məqaləsini hansı vətəndaşlıq missiyasının tələbi ilə yazıbsa, elə Ə.R.Xələfli də elə həmin missiyanı müzakirə obyektinə çevrib.

Kitabda növbəti yazı «Dilin və yurdun sevdasında» adlanır. Bu yazı professor M.Allahmanlının Salatın Əhmədli yaradıcılığına həsr olunmuş «Dilə sevgi - yurda sevgi» kitabının məziyyətlərindən bəhs edir. Mənim də yaxşı tanıdığım və səmimi yaradıcılıq münasibətimi bu gün də davam etdirdiyim professor M.Allahmanlının Salatın Əhmədli yaradıcılığına diqqətini həmişə təqdir etmişəm. Həmin kitaba Ə.R.Xələfli çox geniş və əhatəli ön söz yazmışdı. Ön sözdə o, müəllifin Salatın Əhmədli yaradıcılığına münasibətini xarakterizə edir, onun yazıya alim münasibətinin fərqli cəhətlərini üzə çıxarmağa çalışır. Yazının əvvəlində müəllif ədəbiyyata, sənətə münasibətlə bağlı düşüncələrini qələmə alır: «Mənim tam inamıma görə ədəbiyyat fədakarların obrazıdır və ədəbiyyatı yaradan da elə fədakarlardır. Əlbəttə, söhbət həqiqi ədəbiyyatdan gedir. Ədəbiyyat adına yarananlardan yox. Demək, ədəbiyyat adına yaranan və ədəbiyyat olmayan əsərlər, kitablar olduğu kimi, zahirən özünü fədakar göstərənlər də ola bilər. Bütün zamanlarda həqiqi fədakarlar özünü fədakar kimi göstərənlərin kölgəsində qalsalar belə, bu gün cəmiyyət mənəvi nizamını qoruyub saxladığı üçün həqiqi fədakarlara borcludur». İlk baxışdan bu qeydlərin özü mövzuya o qədər də dəxli yoxdur, - kimi görünür. Ancaq bir qədər əhatəli düşünməli olsaq, cəmiyyətimizin mənəvi problemlərini sosial həyatın təzadlı tərəflərini ədəbiyyat qədərincə göstərə bilirmi sualına o qədər də aydın cavab verə bilmirik.

Beləliklə, Ə.R.Xələfli həmin qeydlərində Salatın Əhmədlinin çoxcəhətli yaradıcılığını tədqiqata cəlb etmiş professor M.Allahmanlının ayrı-ayrı yazılarında diqqəti çəkən məqamları təhlil edir və oxucu diqqətinə çatdırır. Biz burada Salatın Əhmədlinin tərtibçi müəllif hüququ il əvə eləcə də əsas müəllif hüququ ilə nəşr etdirdiyi kitabların əsaslı və dərin təhlilini görürük. XIX əsr Azərbaycan ədəbiyyatı (poeziya)», «Şairlər vətəni bizim tərəflər» kimi kitabların nəşrində Salatın Əhmədlinin əvəzsiz xidmətlərini özünəxas üslubda və xüsusi qayğıkeşliklə diqqətə çatdırır. Daha bir kitab - «Şərəfli ömür yolu» kitabı haqqında M.Allahmanlının yazdığı qeydlər göstərir ki, onun üçün bölgə və mövzu məhdudluğu yoxdur. «Şərəfli ömür yolu» kitabı ilə bağlı M.Allahmanlının qeydlərinə Ə.R.Xələflinin münasibəti də yaradıcılığa ziyalı missiyasının tələbindən irəli gəlir. Ə.Xələfli yazır: «M.Allahmanlı bu kitaba təsadüfi müraciət etməyib. Axı onun özü də S.Əhmədlinin haqqında dediyimiz kimi, Qazax-Ağstafa mənəvi mühitinin yetirməsidir. Yəqin ki, eyni mühitin mənəvi övladı olaraq o, "Şərəfli ömür yolu" kitabına biganə qala bilməzdi. Ən azı bir ziyalı olaraq mənəvi mühitin problemlərini özünə borc hesab edərək bu mühitdən kənarda qalmaq onun özünün az qala ədəbiyyatdan kənarda qalması demək olardı. Həm M.Allahmanlı, həm də "Şərəfli ömür yolu" kitabının müəllifləri - Salatın Əhmədli və Həyat Rüstəmzadə belə bir mənəvi kriteriyaya, ölçülərə sığınıblar: "Azərbaycanda ziyalılar cəmiyyətimin elitasıdır və ölkənin inkişafı xeyli dərəcədə onların fəaliyyətindən asılıdır. Belə olan halda, ziyalı insanlara maksimum dərəcədə qayğı, diqqət göstərilməlidir..." Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sözlərini müəlliflər - Salatın Əhmədli və Həyat Rüstəmzadə - kitablarına təsadüfi epiqraf seçməyiblər. Ən başlıcası, həm bir ziyalı olaraq R.Rüstəmzadənin yaradıcılığına müəyyən diqqətin göstərilməsi dövlət tələbi olaraq diqqəti qaldığı kimi, M.Allahmanlının da bu kitaba münasibəti "Şərəfli ömür yolu" əsərinin məziyyətləri haqqında danışması Azərbaycan ziyalısının həmin kitabın müəlliflərinin böyük zəhmətinə diqqət və qayğının təzahürüdür». Kiçik bir parçada ədəbiyyatımıza ömür sərf etmiş insanların adları məntiqi hökmlərlə verilir. Salatın Əhmədlinin, Həyat Rüstəmzadənin, Rüstəm Rüstəmzadənin ədəbiyyatımız yolundakı cəfakeşlik xidmətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ədəbiyyatımız haqqındakı qənaəti ilə uzlaşdırılır və qiymətləndirilir.

M.Allahmanlı Salatın Əhmədlinin yaoadıcılığını ardıcıl olaraq izləyir. Onun ədəbi-bədii publisistikasının ən maraqlı cəhətlərini təhlilə cəlb edib. Bu sırada onun Salatın Əhmədlinin «Səfərnamə» adlı çox dəyərli kitabı ilə bağlı qeydləri də maraqla oxunur. Ümumiyyətlə, Salatın Əhmədlinin zəngin yaradıcılığı olan müəllifdir. Onun Xalq şairi Nəriman Həsənzadə ilə bağlı yazdıqları əsaslı tədqiqata möhtacdır.

Salatın Əhmədlinin çoxlu kitabları nəşr olunub. Hətta yaradıcılığının XII cildliyi də nəfis şəkildə çap olunub və elmi-ədəbi-bədii xəzinəmizin dəyərli səhifələrini tutur.

«Ali sözün işığında» məqaləsi də mənə çox maraqlı gəldi. Bu qeydlərində də Ə.R.Xələfli Salatın Əhmədli yaradıcılığının əhatə dairəsini, sərhədlini əhatə etməyə çalışır. Onun N.Həsənzadə ilə bağlı qeydləri göstərir ki, ustadların yaradıcılığı tədqiqatçılar üçün ilham mənbəyidir. Bu mənada, Salatın Əhmədlinin «Poylu - beşiyim mənim» eposu ilə bağlı yazdıqları tarixi keçmişimizə yaddaş baxımından doğma münasibətin təzahürüdür. Ə.R.Xələfli N.Həsənzadə və Salatın Əhmədli yaradıcılığında qarşılıqlı əlaqələrdən bəhs edərkən maraqlı bir məqama da diqqəti cəlb edir: «Yeri gəlmişkən, böyük fəxarətlə, qürur hissilə qeyd edərdim ki, Xalq şairi N.Həsənzadənin yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən «Poylu beşiyim mənim» eposunda müəllifin mənəvi aləmindən keçən, ona doğma, yaxın olan insanların sırasında mənim də - bu sətirlərin müəllifinin də adı bir poetik örnəkdə əbədiləşmişdir. Tədqiqatçı S.Əhmədli həmin məqamı da diqqətdən qaçırmamış, əsərdən həmin bəndi nümunə gətirərək vaxtilə N.Həsənzadə haqqında yazdığım qeydlər əsasında öz münasibətini də bildirmişdir:

*«Bəlkə, mənim «səhvlərimi» sapa düzən var?*
*Söz ağzımdan çıxan kimi ağız büzən var?*
*Anan ölsün, ay Nəriman, səni üzən var,*
*Bəlkə, indi asır-kəsir, yoxdur xəbərin,*
*Əli Rza Xələflini tapın - söz verin.*

«Kredo» qəzetinin baş redaktoru Ə.Xələfli N.Həsənzadəni ürəkdən sevən, onun yaradıcılığına yüksək qiymət verən dəyərli bir insandır. Şair-publisist Ə.Xələfli «Meyar» kitabında (2008) N.Həsənzadənin yaradıcılığına öz vətəndaş mövqeyini bildirmişdir». Onu da qeyd edim ki, Salatın Əhmədli «Hüseyn Cavidin ev-muzeyi» kitabında Cavid və Turan xanımla bağlı maraqlı düşüncələrini qələmə alıb. Və Ə.R.Xələfli Salatın Əhmədlinin həmin qeydlərini oxuculara məmnunluqla çatdırılmuşdı: "Turan xanım Cavid irsinin ən böyük pərəstişkarlarından və təbliğatçılarından biri idi. Şairin ev-muzeyinin yaradılması, əsərlərinin ən mükəmməl nəşrinin hazırlanması bilavasitə onun adı ilə bağlıdır. Sovet dövrü nəşrlərində Cavidin imlasına müdaxilə olunmuş, bir çox yerlərdə isə təhriflərə yol verilmişdir. Turan xanımın hazırladığı son beşcildlik külliyyatında Cavidin ilkin imlası, demək olar ki, bərpa olunmuş, böyük şair-dramaturqun hətta indiyə qədər çap olunmamış əsərləri də ilkin şəklində oxuculara çatdırılmışdır". Bu qeydlərdə biz Salatın Əhmədlinin Cavidlər nəslinə həssas münasibətinin şahidi oluruq. Görünür, elə bu həssaslığın nəticəsidir ki, Ə.R.Xələfli həmin qeydlərə geniş və əhatəli münasibət bildirir. Bu da onu göstərir ki, ədəbiyyatda mövzuya həssas yanaşma sənətkarın yaradıcılığında diqqəti çəkən məqamlara işıq salır.

«Heydər Əliyevin dil siyasəti» Salatın Əhmədli yaradıcılığının ən dəyərli səhifələrindəndir. Baxmayaraq ki, Ə.R.Xələfli Salatın Əhmədlinin bu əsəri ilə bağlı ayrıca bir kitab yazıb nəşr etdirib. Amma o, ayrı-ayrı zamanlarda bu mövzuya təkrar-təkrar qayıdıb və Salatın Əhmədlinin dil təəssübkeşliyini yüksək qşiymətlənirib. Bu da «Düşüncə axarı» kitabının müxtəlif səhifələrində təzahür edir.

«Qələm tanıyır, əlbəttə, qələmi tanıyanı» yaxud Salatın Əhmədliyə məktub» adlı yazının da mövzusu Salatın Əhmədli təbiətinin orijinal tərəflərinə münasibətdir. Salatın Əhmədli ədəbiyyatımızın qayğısını çəkən müəlliflərdəndir. O, klassik qadın pedaqoqların, ədəbiyyat xadimlərinin ən dəyərli mənəvi varisi kimi bu qeydlərdə təqdim olunur. O, məktub janrında yazdığı qeydlərində məramını belə açıqlayır: «Mən sevinirəm ki, cəmiyyətə doğma olan ziyalı bir xanım kimi və həm də bunu çəkinmədən deyərdim ki, yüz il bundan əvvəlki maarifpərvər ziyalıların yolunu davam etdirmək əzmində olan bir müəllim, tədqiqatçı, istedadlı bir yazıçı, nəhayət, xeyirxah və nəcib bir insan kimi xalqımız arasında tanınır və təqdir olunursunuz. Hekayələriniz, elmi-tədqiqi yazılarınız, səfər qeydləriniz, ədəbiyyatın müxtəlif janlarında qələmə aldığınız yazılarınız oxucular tərəfindən maraqla qarşılanır. İnsanlarla, xüsusən cəmiyyətin diqqətə, qayğıya səmimi münasibətə ehtiyacı olan adamlarına münasibətiniz sizə qarşı sonsuz rəğbətin əsas qaynağıdır. Bu da təsadüfi deyil. Bir əsrdən artıq ömür sürmüş ananız Güləbatın Mustafaqızının mənəvi zənginlik aləmindən dərs almısınız. Sizin əməllərinizdə Nigar xanım Şıxlinskayanın, Gövhər Qayıbovanın, Mədinə xanım Qiyasbəylinin, Badi Səba xanımın, Hənifə Zərdabinin, Həmidə Məmmədquluzadənin yaşarı ənənələrini görürəm. Və təkcə mən yox, bunu hər bir vicdanlı qələm sahibi etiraf edə bilər. Bu, çox şərəfli bir yoldur. Arzu edərdim ki, bütün ömrünüz boyu bu yoldan dönməyəsiniz. Sizə bu yoldakı əzablara qatlaşmaq əzmi arzulayıram». Müəllif doğru deyir ki, «Qələm müqəddəslik, ülvilik, saflıq rəmzidir. Qələm hər kəsi tanımaz. Amma qələmin tanıdıqları var. Əlbəttə, qələmi tanıyanlardan söhbət gedir». Nəsə əlavə etməyə lüzum qalmır. Kitabda maraqla oxunan digər yazılar haqqında da geniş və əhatəli danışmaq yaxşı olardı. Çünki elə oxucular da var ki, onlar kitabın ümumi məzmununa redaktordan, yaxud rəyçidən olan qeydlərlə bələd ola bilirlər. Səmimi münasibət istər-istəməz oxucu marağını təmin edir.

Kitabda «Azərbaycançılıqda nizamişünaslığın yeri», «Yaşamaq haqqında sözün aynasında», «Mövqe aydınlığı tədqiqatçı duyumu» kimi qeydlər elmi dəyəri ilə seçilir.

Kitabda maraqlı bir yazı da var. Bu, «Qaçaq Məmmədalı» kitabına münasibətlə bağlıdır. Biz tarixi keçmişimizlə bağı əsərlərə, xüsusilə sənədli kitablara diqqət göstərməliyik. Bu kitablarda tarixi faktları yaddaşımızın qorunmasına xidmət edir.

Salatın Əhmədli də «Qaçaq Məmmədalı» kitabı ilə bağlı yazdığı qeydlərində elə bu məramı təqdir edir.

Akademik Ziya Bünyadovun təbiri ilə desək, hər kəs öz yeri, yurdu ilə bağlı tarixi olayları qələmə alırsa, bu, xalqımızın tarixinə xidmətin ifadəsidir. Digər qeydlər də maraqlıdır: «Poylu yolunda düşüncələr», «Qanlı günlər, canlı ünlər», «Hər igidin öz adı», «Dünya bir pəncərədir» kimi yazıları sadəcə gösdən keçirməklə kifayətlənmək olmur. Mətnlərdəki cazibə, mövzunun mahiyyəti ilə uzlaşır. Bu da istər-istəməz oxucu marağını təmin edir.

«Dünya bir pəncərədir» adlı yazı məni xüsusilə təsirləndirdi. Bu yazı ikinci bir başlıqla «Görünən adamın xatirəsinə elegik pıçıltılar» da adlanır. Müəllif həmin yazıda görkəmli mühəndis, «Şöhrət» ordenli Tağı Əhmədovun maraqlı həyatına, təbiətinin humanizm cəhətlərinə xüsusi diqqət edir.

Belə bir maraqlı qeyd də diqqətimi çəkdi: «Tağı Əhmədovda - Tağı Sadiqdə bir mənəvi toxluq vardı. O insanlara yox, ümumiyyətlə, həyata yuxarıdan aşağı baxırdı. Bir dəfə "3d" verilişində aparıcı (adını çəkmirəm) "Sizə metro Tağı deyirlər, bu sizi narahat etmir ki?" sualını vermişdi.

"Niyə narahat olmalıyam? İşimlə, ixtisasımla, əməli fəaliyyətimlə bağlı addır. Burada pis nə var ki?!" - bəli, Tağı Əhmədov belə təmkin sahibi idi. Cırmaqlamağa, ilişməyə yer axtaranlara iynə ucunca da imkan verməzdi». Tağı Əhmədov yetərincə hazırcavab, hər hansı bir məsələyə obyektiv münasibət bildirən şəxsiyyət idi. O, ömür-gün yoldaşı Salatın Əhmədlinin yaradığılığını həmişə təqdir edir, ona dayaq olmağa çalışırdı. Bu da istər-istəməz ədəbi mühitimizin zənginləşməsinə xidmət demək idi.

Kitabda ikinci kifayət qədər yer alan bir bölüm də var. Müəllif həmin bölməni «Əlavələr» adı ilə təqdim edir. Ayrı-ayrı müəlliflərin S.Əhmədli yaradıcılığına səmimi, humanist təbiətinə ayna tutan həmin qeydlər də maraqla oxunur. Cümşüd İsgəndərin, Xatirə Əzizin, Həyat Rüstəmzadənin, Yaqub Babayevin, Y.İsrafilovun, F.Meydanlının, Ş.Albalıyevin, F.Nadirin, D.Rzayevanın, İ.Yusifoğlunun, N.Əlioğlunun qeydləri ədəbi mühit üçün kifayət qədər məlumat mənbəyi kimi diqqəti cəlb edir. Əlbəttə, tianınmış alimlərin İsa Həbibbəylinin, Rüstəm Kamalın, Vüqar Əhmədin və digər bir çox müəllifin qeydləri diqqəti cəlb edir. Əlbəttə, Süleyman Alıyevin geniş və əhatəli təhlillərlə müşayiət olunan bir neçə yazısı göstərir ki, S.Əhmədli yaradıcılığı paytaxtdan kənara yaşayan ziyalıların da diqqətini cəlb edir. S.Alıyevin «Dilini sevən millətini sevər», «Harda söz yanğısı var», Ruhumuzdan, qəlbimizdən», «Heydər Əliyev və ədəbi tarixi proses» başlıqları altında verilmiş yazılar ədəbiyyatşünaslıq baxımından da üRüstəmzadənin
çox dəyərlidir.

Kitabda Tağı Sadiqin də şeirləri yer alıb. Zənnimcə, müəllif bu şeirləri kitaba Tağı Sadiqin xatirəsinə ehtiram olaraq daxil edib.

Əli Rza Xələflinin oxuculara yeni təqdim olunan «Düşüncə axarında» adlı kitabı tədqiqatçılarımız üçün də maraqlı olacaq. Ali məktəblərin humanitar fakültələrinin tələbələri bu kitabdan çox dəyərli məlumatlar əldə edə bilərlər.

Zənnimcə, «Düşüncə axarında» kitabı sözün gücünə inamla yazılıb. Bu inam müəllifin zəhməti ilə müşayiət olunduğu üçün çox dəyərlidir.

***06.10.2025***